# Əhalinin sığorta-pensiya təminatı diqqət mərkəzindədir

Əsası Heydər Əliyev tərəfindən qoyulan sosial-iqtisadi siyasətin bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsinin nəticəsidir ki, bütün sahələrdə davamlı inkişaf, əhalinin həyat səviyyəsinin yüksəlişi özünü göstərməkdədir. Respublikamızda olduğu kimi rayonumuzda da ildən-ilə əhaliyə ödənilən pensiya və müavinətlərin həcmi bir neçə dəfə yüksəlmiş, sosial ödənişlərin maliyyə təminatı möhkəmlənmiş, vəsaitlərin əhaliyə vaxtlı-vaxtında çatdırılması təmin olunmuşdur. Xidmətin səviyyəsinin artırılması da unudulmamışdır. Misal göstərmək istərdim ki, əgər 2004-cü ilin ynvar ayının 1-nə rayon üzrə hər nəfər üçün orta aylıq pensiyanın məbləği 27,04 manat olmuşdursa ötən müddət ərzində həmin göstərici təqribən 5,7 dəfə artaraq 153,44 manata çatmışdır.

Dövlət Sosial Müdafiə Fondu Qəbələ Rayon Şöbəsi, 2015-ci ilin birinci yarımilliyində nəzərdə tutulmuş proqnoz tapşırıqlarının yerinə yetirilməsinin, pensiya qanunvericiliyində baş vermiş dəyişikliklərin icrasının ən qısa müddətdə təmin olunması və əhaliyə pensiya ödənişlərinin vaxtlı-vaxtında həyata keçirilməsi istiqamətində öz fəaliyyətini uğurla davam etdirmişdir.

2015-ci ilin ilk yarısında gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 4099,1 manata qarşı 3688,7 min manat məcburi dövlət sosial sığorta haqları toplanaraq, yarımillik proqnoza 90 faiz əməl olunmuşdur. Proqnozun icrası müvafiq olaraq büdcə təşkilatları üzrə 2.132,9 min manata qarşı 2006,7 min manat və ya 94,1 faiz, qeyri-büdcə təşkilatları üzrə isə 1966,3 min manata qarşı 1682 min manat və ya 85,5 faiz olmuşdur. 2015-ci ilin ilk 6 ayı ərzində 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə ümumilikdə 191,3 manat və ya 5,4 faiz, o cümlədən, büdcə təşkilatları üzrə 5,5 min manat və ya 0,3 faiz, qeyri-büdcə təşkilatları üzrə isə 185,8 min manat və ya 12,4 faiz çox məcburi dövlət sosial sığorta haqları toplanmışdır.

Dövlət sığorta sistemində fərdi uçotun tətbiqi ilə əlaqədar olaraq, cari ilin birinci yarısı ərzində 1004 nəfərə yeni sığorta şəhadətnaməsi verilmiş, daha 80 nəfər şəxsə yeni sığorta şəhadətnaməsinin hazırlanması üçün fondun aidiyyatı şöbəsinə sifarişlər verilmişdir. Bununla da bu günədək sığorta şəhadətnaməsi alan şəxslərin sayı 24865 nəfərə çatmışdır.

1 iyul 2015-ci il vəziyyətinə şöbə üzrə 11.539 pensiya işi üzrə 11.842 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Onlardan 8.028 nəfəri yaşa görə, 2.808 nəfəri əlilliyə görə, 703 ailə üzrə 1006 nəfəri ailə başçısını itirməsinə görə pensiyaçı olmuşdur. Pensiyaçılara təyin olunmuş 1 aylıq pensiyanın ümumi məbləği 1.770,6 min manat, bir pensiya işi üzrə orta aylıq pensiya məbləği isə 153,44 manat təşkil etmişdir. Hesabat dövründə 25 nəfərə yaşa görə pensiya 190 saylı qaynar xəttə müraciət əsasında avtomatik qaydada təyin olunmuşdur.

Respublika Prezidentinin 3 aprel 2015-ci il tarixli 1159 saylı Sərəncamı ilə şöbədə qeydiyyatda olan 14 nəfər Böyük Vətən Müharibəsi iştirakçısı və əlilinin, 128 nəfər müharibə iştirakçısının dul qadını və müharibə illərində arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxsin hər birinə isə, müvafiq olaraq 800 və 400 manat məbləğində birdəfəlik maddi yardım ödənilmişdir.

Hazırda rayonumuzda bütün pensiyaçılar pensiyalarını plastik kartlarla alır ki, bu məqsədlə pensiyaçılara Beynəlxalq Bankın 8 bankomatı xidmət göstərməkdədir.

İlin 6 ayının yekununa görə şöbə üzrə 11.072.588,49 manat vəsait xərclənmişdir ki, bundan 10.682.126,27 manatını əhaliyə pensiyaların ödənilməsi, 245.714,50 manatını məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin ödənilməsi, 44.190,70 manatını həmin ödənişlər üzrə bank xidməti xərcləri, 100.557,02 manatını aparatın saxlanılması və sair xərclər təşkil etmişdir.

Ümumilikdə, xərclənmiş 11 milyon 72 min 588,9 min manat vəsaitin 7 milyon 240 min manatı və ya 65,4 faizi subsidiyalar, qalan 3 milyon 832 min 588,49 manatı və ya 34,6 faizi isə yerli daxilolmalar hesabına ödənilmişdir.

Qeyd etmək istərdim ki, DSMF Qəbələ Rayon Şöbəsinə vətəndaşlardan daxil olan ərizə və şikayətlərə də müstəqil ölkəmizin qanunlarının tələbləri səviyyəsində baxılmış, bu ərizə, şikayət və təkliflər diqqətlə araşdırılaraq müvafiq tədbirlərin görülməsi təmin edilmişdir. Şöbəyə şifahi müraciət edən vətəndaşların düzgün qeydiyyatı aparılmış, onlar rəhbərlik tərəfindən məhdudiyyətsiz qəbul olunmuşlar.

Bundan sonra da şöbə tərəfindən sığorta-pensiya sistemində Azərbaycan Respublikasının mövcud qanunvericiliyin tələblərinə tam və dolğun şəkildə əməl olunacaq, gələcəkldə də dövlətimizin bu istiqamətdə müəyyən edəcəyi tədbirlərin icrası təmin olunacaqdır.

**Ariz MƏMMƏDOV,**
**Dövlət Sosial Müdafiə Fondu Qəbələ Rayon Şöbəsinin müdiri.**

## «Qəbələ»nin xəbər boxcası

### Vergilərlə bağlı problemlər aradan qaldırılır

Vergilər Nazirliyinin Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarımilliyinin yekunları və qarşıda duran vəzifələrlə bağlı 13 iyul tarixli iclasına həsr olunmuş iclasında qeyd olunmuşdur ki, Prezident İlham Əliyevin ayrı-ayrı vergi orqanlarının ünvanına səsləndirdiyi iradların qısa müddətdə aradan qaldırılması istiqamətində artıq ciddi addımdar atılır. Xüsusən Prezidentin iradları fonunda ölkədə vergi sahəsində şəffaflıq bir qədər də artırılacaq. Bu isə sahibkarlığın inkişafında özünü göstərəcək.

### Yerli istehsal olan maşınların güzəştli qiymətlərlə satışı təklif olundu

Statistik məlumatlardan aydın olur ki, bu il yanvar-iyun aylarında Gürcüstandan Azərbaycana 2207 minik avtomobili ixrac edilib. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,4 dəfə azdır. Müxtəlif markalardan olan yeni maşınların da idxalında xeyli azalma var. Belə bir vəziyyətdə təkliflər səslənir ki, daxildə istehsal edilən avtomobillərin güzəştli şərtlərlə satışının həyata keçirilməsi vacibdir. Hesab edilir ki, daxili istehsalın həcminin artırılması ilə yanaşı avtomobil bazarını da canlandırmaq lazımdır. Eyni zamanda ekspetlər bildirirlər ki, avtomobil zavodlarının gücünün artırılması, keyfiyyətinin yüksəldilməsi ilə də bu addımı atmaq olar.

# Həmkarlar ittifaqı ən nüfuzlu və ən kütləvi təşkilatdır

(Əvvəli 5-ci səhifədə).

Eyni zamanda rayonda fəaliyyət göstərən bütün təhsil müəssisələri məktəb avadanlıqları və müasir informasiya-kommunikasiya texnologiyası ilə tam təchiz edilmişdir. Sözsüz ki, bu, müəllimlərə və şagirdlərə verilən yuksək qiymətdir.

Bu gün Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Qəbələ Rayon Komitəsi öz fəaliyyətini «Həmkarlar İttifaqı» haqqında Qanunun tələblərinə uyğun qurmağa səy göstərir. Rayon komitəsi əhatə etdiyi sahənin daha da genişləndirilməsinə, eyni zamanda təhsil ocaqlarında əmək intizamının möhkəmləndirilməsinə, əməyin mühafizəsinin tənzimlənməsinə, texniki təhlükəsizlik qaydalarına əməl edilməsinə xüsusi diqqət yetirir və bu sahədə hər bir ilk təşkilatın məsuliyyətini artırır. 70-ə qədər ilk təşkilat və 3 min nəfərdən çox ittifaq üzvünü öz ətrafında birləşdirən sahə həmkarlar ittifaqı rayonun bütün təhsil ocaqlarının xidmətindədir. Hazırkı dövrdə həmkarlar ittifaqlarının nüfuzu və təsir dairəsi artdığı bir vaxtda rayon komitəsi ilk həmkarlar təşkilatlarının gündəlik fəaliyyətinə nəzarət edir, onların fəaliyyətini məktəblərdə təlimin və tədrisin keyfiyyətinin yüksəldilmsinə, təhsil islahatlarının düzgün həyata keçirilməsinə, əməyin mühafizəsinə, işçilərin sosial-hüquq normalarının və sağlamlıqlarının qorunmasına istiqamətləndirir.

Məlumat üçün bildirək ki, bu ilin əvvəlindən başlayaraq bütün ilk həmkarlar təşkilatlarında illik hesabat yığıncaqları keçirilmiş, bəzi ilk təşkilatların sədrləri yeniləri ilə əvəzlənmişdir. Onu da qeyd etməliyəm ki, təhsil ocaqlarından hər il həmkarlar ittifaqı xətti ilə daha çox ehtiyacı olan müəllimlərdən müalicə ocaqlarına göndərilməsinə və aztəminatlı müəllim ailələrinə yardım göstərilməsinə xüsusi qayğı ilə yanaşırıq. 2014—2015-ci illər ərzində rayon komitəsinin yollayışı ilə—40 nəfərə yaxın müalicəyə daha çox ehtiyacı olan müəllim və texniki işçi Bilgəh, Günəşli, Abşeron müalicə ocaqlarına göndərilib və xeyli sayda aztəminatlı müəllim aillərinə yardım göstərilmişdir. Mədəni-kütləvi tədbirlərin mütəşəkkil keçirilməsi, qabaqcıl müəllimlərin və əlaçı şagirdlərin həvəsləndirilməsi istiqamətində gördüyümüz işlər müsbət mənada öz səmərəsini verir. Müəllimlər Gününü, 8 Mart—Beynəlxalq Qadınlar Gününü, Novruz bayramını və başqa bayramları təntənə ilə qeyd etmək tərəfimizdən ənənə halına çevrilib.

Rayon komitəsi əmək kollektivləri ilə müdiriyyət arasında əmək müqaviləsinin bağlanılmasına, nəzərdə tutulan öhdəliklərə sosial ədalət prinsipinə uyğun əməl olunmasına nəzarəti əsas vəzifəsi hesab edir. Yerli ilk təşkilatların köməyi ilə gənc müəllimlərlə direktorlar arasında qanunla müəyyən edilən əmək müqaviləsinin bağlanması tələbini bütün ümumtəhsil məktəblərində təmin etmişik. Müqaviləyə əsasən götürülmüş öhdəliyə əməl etməyən tərəf ilk təşkilatın yığıncağında müzakirə edilir və buraxılan nöqsanlar barədə müvafiq tədbirlər görülür.

Sözsüz ki, təhsil ocaqlarında təlim və tərbiyənin keyfiyyətinin yaxşılaşdırılmasında, habelə əmək intizamının möhkəmləndirilməsində fəallıq göstərən ilk təşkilatlarımız da çoxdur. Şəhər 1,2,3 saylı, Vəndam qəsəbə 1 saylı, Nohurqışlaq, Tüntül, Zarağan kənd tam orta məktəblərinin ilk həmkarlar təşkilaitlarının fəaliyyətini müsbət mənada misal göstərmək olar.

Həyat müasir yanaşma forma və metodlarının tətbiqini zəruri edir. Həmkarlar ittifaqları üçün bir şey dəyişməz olaraq qalır—o da üzvlərinin hüquqi maraqlarının aliliyi.

**Nəriman ŞƏRİFOV,**
**Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Rayon Komitəsinin sədri.**